


# Ulduzlara gedən yolda Azərbaycan izi

**Göy üzü hər zaman həm qorxulu, həm də cazibədar olub. Bəlkə də elə buna görə insan min illərlə teleskoplar düzəldib, xəritələr çəkib, miflər uydurub və gözlərini səmadan ayırmayıb. 1957-ci il oktyabrın 4-də SSRİ-nin kosmosa göndərdiyi ilk süni peyk Yerin orbitinə çıxarılıb və bununla da bəşəriyyətin həyatında yeni bir dövr olan kosmos erası başlanıb. 1961-ci ilin 12 aprelində insanlıq tarixində bir inqilab yaşanıb, təyyarəçi-kosmonavt Yuri Qaqarin Yerin cazibəsindən ayrılıb kosmosa çıxıb. Onun "Getdik!" nidası bütün dünyada eşidilib.**

12 aprel Beynəlxalq Kosmonavtika Günü kimi sadəcə texnoloji nailiyyətin deyil, bəşəri təkamülün simvoludur. Qaqarinin uçuşu ilə başlayan bu macəra dünya ictimaiyyətinin diqqətini Ayın səthinə, Marsın ətrafına, Günəşin sərhədlərinə qədər apardı. Artıq teleskoplarla baxdığımız ulduzlara robotlar enir, peyklər sonsuz boşluqda dövrə vurur. Beynəlxalq Kosmonavtika Günü insanın nə qədər fəth etmək, böyük işlər görə biləcəyini ehtiva edir. Kosmosa uçuş yalnız fiziki sərhədləri aşmaq deyil, onu genişləndirmək, "mümkün olmayan"ı yenidən yazmaq deməkdir.

Məhz Yuri Qaqarinin uçuşundan sonra kosmosun fəth olunması üzrə 250-dən çox proqram həyata keçirilib, orbitdə 30-dan çox ölkədən bir neçə yüz kosmonavt və astronavt olub. Azərbaycanlı mühəndis, sovet kosmonavtikasının banilərindən olan Kərim Kərimovun rəhbərliyi və elmi bilikləri sayəsində "R-2" tipli raketlərin hazırlanmasında mühüm nailiyyətlər əldə olunub. Məhz bu raket texnologiyası sonradan Yerin ilk süni peykinin kosmosa çıxarılmasında əsas rol oynayıb. Beləliklə, bu tarixi uğurda azərbaycanlı mühəndisin zəhməti və zəkası əbədi iz qoyub.

Prezident İlham Əliyevin 2008-ci il 4 noyabr tarixli "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" Sərəncamı ölkəmizdə kosmik sahənin inkişafının əsasını qoydu. 2009-cu il avqustun 17-də "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" təsdiqləndi. Bununla real layihələrin icrası başlandı.

2010-cu il 3 may tarixində verilmiş Sərəncam əsasında "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti təsis olundu. Bu 2013-cü ilin fevralında "Azerspace-1" adlı ilk milli telekommunikasiya peykimiz Fransa Qvianasında yerləşən Kuru kosmodromundan "Ariane-5" daşıyıcı raketi vasitəsilə orbitə buraxıldı.

"Azerspace-1" peykinin çevik qoşulma imkanları və müasir dizaynı sayəsində bu gün milyonlarla insan səs, video, televiziya yayımı və müxtəlif məlumatların ötürülməsi xidmətlərindən istifadə edir. Peyk Afrika, Avropa, Mərkəzi Asiya və Yaxın Şərqi əhatə edən geniş bir coğrafiyada 50-dən çox ölkəyə xidmət göstərərək ölkəmizi informasiya axınının mühüm oyunçularından birinə çevirib.

2014-cü il iyunun 30-da "Azersky" Yerin müşahidə peyki kosmosa göndərildi. Bu peyk kənd təsərrüfatı, ətraf mühitin monitorinqi və təhlükəsizlik sahəsində istifadə olunmaqla ölkəmizin kosmik imkanlarını daha da genişləndirdi. 2018-ci il sentyabrın 26-da isə "Azerspace-2" peyki 45 dərəcə şərq uzunluğu orbital mövqeyinə buraxıldı.

Yarandığı gündən yüksəkixtisaslı peşəkar heyəti və müasir texniki imkanları ilə seçilən "Azərkosmos" ötən dövr ərzində təkcə Azərbaycanın deyil, bütün regionun İKT sektorunda aparıcı qüvvələrdən birinə çevrilib. Bu inkişaf prosesində əhəmiyyətli dönüş nöqtəsi Prezident İlham Əliyevin 2021-ci il 27 aprel tarixli Sərəncamı oldu. Sərəncama əsasən "Azərkosmos" ASC-nin bazasında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs yaradıldı. Ölkəmizin bu sahədəki uğurları təkcə orbitlərdə deyil, beynəlxalq arenalarda da öz əksini tapıb. 2019-cu ilin oktyabrında ABŞ-ın Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş səsvermə nəticəsində Bakı Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazandı. Bu tarixi qərarın ardınca Prezident İlham Əliyevin 2022-ci il 7 fevral tarixli Sərəncamı ilə 74-cü Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradıldı.



2023-cü il oktyabrın 2-dən 6-dək keçirilən tədbir "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusuna həsr olundu. 50 il əvvəl - 1973-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə Bakıda keçirilmiş ilk Beynəlxalq Astronavtika Konqresindən sonra bu tədbirin yenidən Azərbaycanda keçirilməsi böyük rəmzi məna daşıyırdı. Bu, həm keçmişə ehtiram, həm də gələcəyə inam idi.

74-cü Beynəlxalq Astronavtika Konqresi kosmik sahədə yeni mərhələnin başlanğıcı oldu. Konqres çərçivəsində yüzlərlə beynəlxalq nümayəndə - NASA, CNES, "Airbus", "Boeing", JAXA, TUA kimi nüfuzlu qurumların və dünyanın müxtəlif ölkələrinin rəsmi və elmi təmsilçiləri Bakıya toplaşdı. Onların iştirakı ilə Azərbaycan kosmik sənayenin qlobal platformasına daha sıx inteqrasiya etmək imkanı qazandı. Bu mötəbər elmi forum həm də statistik göstəricilərlə tarixə düşdü. Bakı konqresində rekord sayda 95 ölkədən elmi iş təqdim olundu. Bu göstərici ilə Bakı Paris (2022), Vaşinqton (2019) və Bremen (2018) kimi nüfuzlu konqresləri də geridə qoyaraq tarix yazdı. Ümumilikdə 190 texniki sessiyada, o cümlədən müxtəlif tədbirlərdə dünyanın hər yerindən gəlmiş tədqiqatçılar, alimlər və tələbələr kosmosun hazırkı vəziyyəti və gələcək perspektivləri barədə fikir mübadiləsi apardılar. Azərbaycanlı elm adamlarının və gənclərin fəal iştirakı isə bir daha sübut etdi ki, Azərbaycan yalnız orbitlərə peyk göndərən ölkə deyil, həm də bilik, fikir və təşəbbüslərin müzakirə olunduğu qlobal kosmik dialoqun fəal iştirakçısıdır.

2024-cü il dünya aviasiyası və kosmonavtika sahəsində yeni səhifə ilə yadda qaldı. Bəşəriyyətin ulduzlara doğru yolçuluğuna bu dəfə türk bayrağı da əlavə olundu. Yanvarın 19-da Türkiyə vaxtı ilə saat 00:49-da ilk türk astronavt Alper Gezeravcı kosmosa yola düşdü. Bu Türkiyənin elm, texnologiya və gələcək baxışının açıq-aşkar ifadəsi idi. Uçuşun canlı yayımlanması üçün ölkənin demək olar ki, hər yerində xüsusi ekranlar quruldu və milyonlarla insan bu tarixi ana şahidlik etdi. "Dragon" kosmik gəmisi ilə yolçuluq 36 saatdan artıq davam etdi. Yanvarın 20-si saat 13:40-da gəmi Beynəlxalq Kosmik Stansiyaya yaxınlaşdı. Missiya çərçivəsində Beynəlxalq Kosmik Stansiyada 13 elmi təcrübə həyata keçirildi. Bu təcrübələr həm insan orqanizminin kosmos şəraitinə reaksiyasını öyrənmək, həm də yer üzündə tətbiq oluna biləcək yeni biliklər əldə etmək məqsədi daşıyırdı.

Xüsusilə diqqətçəkən təcrübələrdən biri MYELOID adlanırdı. Bu təcrübə astronavtların mikroqravitasiya, kosmik radiasiya və digər ekstremal kosmik amillərə məruz qalması zamanı immun sistemlərinin və qan təzyiqinin necə dəyişdiyini analiz etməyə yönəlmişdi. Bununla yanaşı, MYOCA, UYNA və MESSAGE kimi eksperimentlər bu missiyanın elmi yükünü daha da artırdı. Türkiyənin bu uğuru həm regional, həm də beynəlxalq kontekstdə elmi əməkdaşlıqlara yeni üfüqlər açmaqla yanaşı, bütün türk dünyasında kosmosa dair marağın və təşəbbüslərin güclənməsinə təkan verdi. Gələcəkdə bu səmavi səyahətə Azərbaycan və digər türk dövlətlərinin də öz nümayəndələrini göndərməsi artıq xəyal deyil.

Kosmos yalnız böyük güclərin yarış meydanı deyil, elmin, texnologiyanın ünvanıdır. Azərbaycan da bu ünvanın fəal iştirakçısı kimi kosmik sahədə mühüm addımlar atır. Beynəlxalq əməkdaşlıq, elmi nailiyyətlər və tarixi konqreslərlə ölkəmiz sübut edir ki, ulduzlara gedən yolda onun da izi var. Bu yol gələcəyə aparır - daha güclü, daha parlaq bir gələcəyə.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 12 aprel (№ 71).- S.15.